GÜNÜN SİYASİ NƏBZİ





# Geosiyasi konfiqurasiyanı ölkəsinin lehinə çevirən Lider

*ABŞ-nin Prezidenti Donald Trampın dəvəti ilə Azərbaycan Prezidenti İlham Əliyevin Vaşinqtona səfəri məzmun və əhəmiyyət baxımından qlobal miqyaslı tarixi hadisədir. Dövlət başçımızın səfər gündəliyi iki vacib hədəfi ehtiva edirdi. Birincisi, Azərbaycan-ABŞ əlaqələrinin müasir reallıqlarla uzlaşdırılması, ikincisi isə Azərbaycan-Ermənistan sülh gündəliyinin reallaşdırılması. Məlumdur ki, ABŞ ilə Azərbaycan arasında əlaqələr ölkəmiz müstəqilliyini qazandıqdan sonra mürəkkəb yol keçmiş, dövlətlərimiz arasında iqtisadi, ticari, enerji və təhlükəsizlik sahələrində zaman-zaman böyük uğurlarla müşahidə olunan inkişaf tendensiyasına şahidlik etmişik.*



Lakin Bayden administrasiyası dövründə, cənab İlham Əliyevin təbiri ilə desək, münasibətlərimiz bizdən asılı olmayan səbəblərdən, Bayden komandasının münasibətlərə Azərbaycan-Ermənistan, yaxud ABŞ-Ermənistan pəncərəsindən baxması nəticəsində faktiki olaraq sıfırlanmışdı. Eyni zamanda ötən dövr ərzində biz ABŞ Dövlət Departamentinin müxtəlif rəsmiləri, habelə bu quruma bağlı ayrı-ayrı "vətəndaş cəmiyyəti institutları" tərəfindən bəyanat və hesabatlarda hücumlara məruz qalmış, ikili standartlara əsaslanan və beynəlxalq hüquqa zidd, ədalətsiz davranışlarla üzləşmişdik. Donald Trampın ABŞ-da ikinci dəfə hakimiyyətə gəlməsi ilə Bayden administrasiyasının ABŞ-nin Cənubi Qafqazdakı maraqlarına zərbə vuran sərt gedişləri dayandırıldı və bu yarıtmaz siyasətin nəticələrinin aradan qaldırılması istiqamətində real addımlar atılmağa başlandı. Azərbaycan Prezidenti cənab İlham Əliyev hələ ötən il Şuşa Media Forumunda açıq şəkildə bəyan etmişdi ki, ABŞ-nin həyata keçirdiyi mövcud yanlış siyasət yalnız və yalnız cənab Trampın hakimiyyətə gəlməsi ilə dəyişə və Azərbaycanla çoxsaylı dəyərləri bölüşən Donald Trampın müdaxiləsi ilə vəziyyət düzələ bilər. Cari ildə qısa müddət öncə Xankəndidə Şuşa Media Forumunda cənab İlham Əliyevin təkrar həmin mövqeyi ifadə etməsi, ABŞ-nin Prezidenti cənab Donald Trampın özünün sosial media hesabında Azərbaycan Prezidentinin nitqinə iki dəfə yer ayırması, o cümlədən dövlət başçımızın Vaşinqtona dəvət edilərək yüksək səviyyədə qarşılanması məhz cənab İlham Əliyevin proqnozlarında nə qədər haqlı olduğunu ortaya qoydu və ABŞ-Azərbaycan münasibətlərinin yeni inkişaf mərhələsinin başladığını göstərdi.

Prezident İlham Əliyevin ABŞ-ə işgüzar səfərinin gündəliyinə daxil olan çox vacib digər məsələ isə Azərbaycan ilə Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi istiqamətində müzakirələrin aparılması, prosesin irəliləməsi idi. Vaşinqtonda baş tutan müzakirələr, imzalanan sənədlər göstərdi ki, ölkə başçımız müharibənin qalibi olmaqla yanaşı həm də sülh gündəliyinin təşəbbüskarı kimi prosesin bütün mərhələsində Azərbaycan dövlətinin və xalqının maraqlarını, mənafelərini uğurla təmsil edə bildi. Məlumdur ki, Azərbaycan və Ermənistan arasında sülh prosesi kifayət qədər gərgin və mürəkkəb bir dövrdən keçmiş, yalnız Azərbaycanın hərbi-siyasi qələbələri fonunda yaranan geosiyasi reallıqlar İrəvanı cari sülh ritorikasına gətirib çıxara bilmişdir. Azərbaycan Vətən müharibəsindən sonra qalib tərəf olmasına baxmayaraq sülh təşəbbüslərinə start vermiş, 2022-ci ilin əvvəllərində sülh konsepsiyasının 5 əsas prinsipi Ermənistana təqdim etmişdir. Dövlət başçımızın da ifadə etdiyi kimi, həmin prinsiplər Azərbaycan və Ermənistanın bir-birinin suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının tanınmasını, dövlətlərin bir-birinə qarşı ərazi iddiaları ilə çıxış etməməsini, həmçinin Bakı və İrəvanın güc tətbiq etməmək, hədələməmək prinsiplərinə tərəfdar olmasını, sərhədlərin delimitasiya və demarkasiyası, diplomatik münasibətlərin qurulmasını və həmçinin kommunikasiyaların açılmasını ehtiva edirdi. Məhz bu şərtlər əsasında rəsmi Bakı tərəfindən sülh müqaviləsinin mətni hazırlandı. Lakin Azərbaycan ərazisində hələ də separatizm ocağının mövcud olması, o cümlədən özünü beynəlxalq ictimaiyyət elan edən ayrı-ayrı güclər bu qəbildən ABŞ-nin Bayden administrasiyası,



Fransa və bu orbitdə olan ayrı-ayrı beynəxalq subyektlərin təhriki ilə Ermənistan sülhdən maksimum yayınmaqda davam edirdi. İrəvan məğlub tərəf olmasına baxmayaraq sülh sazişində diqtə etməkdə, o zaman Qarabağda yaşayan erməni sakinlərinin məsələsinə dair sülh müqaviləsində müvafiq bəndin olmasında israr edirdi, lakin Azərbaycanın maraqlarını və mənafelərini birmənalı şəkildə müzakirə mövzusu etməyən cənab İlham Əliyev ölkənin daxili məsələsini dövlətlərarası sənədin subyekti ola bilməyəcəyini və beynəlxalq hüququn ümumtanınmış normalarında əksini, prinsiplərdən biri kimi dövlətlərin daxili işlərinə qarışılmasının yolverilməzliyini qətiyyətlə bəyan etdi və mövqeyimizi də məhz bu istiqamətdə möhkəmləndirdi. Cəhdlərinin faydasız olduğunu görən İrəvanın o zamanki hamiləri Bayden administrasiyası və Makron rejimi açıq şəkildə prosesə müdaxilə etməyə sülh müzakirələri fonunda Azərbaycanın qəbul etmədiyi mövqeyi özlərinin diqtəsi ilə qəbul etdirməyə can atır, bu istiqamətdə təxribatlardan, ölkəmizə münasibətdə heç bir siyasi, hüquqi əlxaqa sığmayan çirkab kampansiyasından çəkinmirdilər. Lakin Azərbaycanın 2023-cü ilin sentyabrında həyata keçirdiyi antiterror tədbirləri regionu təhdid edən separatizm amilinə son qoymaqla bərabər, həm də qeyri-region güclərinin təsir rıçaqlarını heçə endirməklə onların bölgədə sülh prosesinə yarıtmaz müdaxilə imkanlarını da sonlandırmış oldu. Bu isə öz növbəsində sülh prosesinin yenidən aktivləşməsinə və bu ilin mart ayında sülh müqaviləsi üzrə danışıqların müqavilə mətninin şərtlərinin razılaşdırılması ilə yekunlaşdı.

Beləliklə də, cənab İlham Əliyevin hərbi-siyasi qələbələri ilə yaratdığı geosiyasi konfiqurasiyanın zamanı Azərbaycanın lehinə çevirməsi fonunda nəhayət üç on illikdən sonra real sülh istiqamətində səmərəli addımlar müşahidə edilməyə başladı. Qısa müddət öncə Əbu Dabi görüşü, ardınca ABŞ Prezidenti cənab Donald Trampın təşəbbüsü ilə Vaşinqton təmasları Azərbaycanın beynəlxalq hüququn aliliyinə yönələn mövqeyinin ifadə olunduğu sülh mənzərəsinin meydana çıxmasına səbəb oldu.

Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin ABŞ-nin Vaşinqton şəhərində keçirilmiş görüşünün nəticələrinə dair Bəyannamə qeyd edilən tendensiyanın məntiqi sonu və Ermənistanın rəsmən Azərbaycanın bütün şərtlərini qəbul etməsi demək idi. Beləliklə, Vaşinqtonda imzalanan həmin bəyanat müharibədə qalib gəlmiş Prezident İlham Əliyevin sülhü də qazandığını ehtiva edən reallıq ortaya qoydu. Çünki bu sənəddə Azərbaycanın israrla tələb etdiyi bütün şərtlərin təmin edilməsi ehtiva olunub. İlk növbədə rəsmi Bakının Minsk qrupunun ləğvi ilə bağlı mövqeyi ifadə olundu və sülh sazişinin paraflanmasının ardınca Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciəti ünvanlandı.

Bu, özlüyündə Azərbaycan Respublikasının sülh prosesi ilə bağlı müəyyən etdiyi prinsipial şərtlərdən birinin qeyd-şərtsiz qəbul edilməsi deməkdir. Lakin Bəyannamənin mətnindən də göründüyü kimi, Azərbaycanın şərtlərinin təmini yalnız Minsk qrupunun buraxılması ilə səciyyələnmir. Ermənistan, həmçinin bu bəyanatla öz konstitusiyasından ərazi iddiasını ehtiva edən müddəanın çıxarılmasını birmənalı şəkildə qəbul edir və eyni zamanda, bu gün erməni cəmiyyətində hakim olan revanşist ab-havadan imtina etməyi birmənalı öhdəlik kimi üzərinə götürür. Nəzərə alsaq ki, Ermənistan qısa müddət öncəyə qədər bu məsələnin İrəvanın daxili işi olduğunu və heç bir formada sülh müqaviləsinin imzalanması üçün şərt olaraq bilməyəcəyini bütün səviyyələrdə rəsmən bəyan edirdi. Belə bir vəziyyətdə Ermənistanın Vaşinqtonda mövqeyini praqmatik istiqamətdə dəyişməsi, heç şübhəsiz ki, Bakının konseptual qələbəsidir. Qəbul edilən sənəddə Azərbaycan Prezidentinin daim vurğuladığı və Bakı ümummilli maraq hesab edilən Zəngəzur dəhlizinin açılması ilə bağlı məqamın yer alması bir daha sübut etdi ki, birgə Bəyannamə regionda Azərbaycanın yaratdığı status-kvonun ABŞ başda olmaqla, bütövlükdə beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilən bir format şəklində ortaya qoyulub. Əminliklə deyə bilərik ki, cənab İlham Əliyevin Vaşinqtonda qazandığı böyük qələbə beynəlxalq diplomatiya tarixində ustad dərsi olmaqla yanaşı, yalnız Cənubi Qafqaz regionu yox, bütövlükdə dünyanın təhlükəsizlik arxitekturasında önəmli rol oynayan bir prosesidir. Heç şübhəsiz ki, Prezident İlham Əliyevin Cənubi Qafqazda hərbi, siyasi və diplomatik yolla nail olduğu status-kvo bu gün dünyanın münaqişələrdən və separatizmdən əziyyət çəkən, sülhə və sabitliyə ehtiyac duyulan regionları üçün örnəyə çevriləcək.

**Bəhruz MƏHƏRRƏMOV,**
**Milli Məclisin deputatı.**